# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 35 (1163) 20 fevral -22 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


# VƏTƏNİN ZAQATALA ADLI İNCİSİ



### *İlk bahar özləmi - gözəl bir duyğu*

**...Burada, təbiətin bəxş etdiyi gözəlliklər məskənində, qızıl güllər diyarı Zaqatalada bu günlər hərdən-hərdən yazın sanki uzaqlardan gələn xoş qoxusu da duyulur. Bənzərsiz Zaqatala şəhəri də, bu rayonun qəsəbə və kəndləri də indilərdə elə bil ilk bahar özləmində, təşnəsindədir. Nə olsun ki, bütün fəsillər buralarda ömürlərini çox "rahat" yaşayırlar. Zaqatalanın baharı ayrı bir ovqatda, ayrı bir biçimdə gəlir sanki, çox uzaqlardan gizlincə gəlir sanki... Bir dünya gözəlinə dönür, görənləri heyran edir, ovsunlayır, eləcə...**



### *Hamı səfərbərdir...*

Hər yerdə olduğu kimi çətinliklər də var. Ancaq kimsə ruhdan düşmək həddində deyil. Əksinə daha diqqətli, daha səfərbər olmağa çalışırlar. Rayon rəhbərliyinin istər mərkəzdə, istərsə də kəndlərdə keçirdiyi bütün görüşlər optimist notlarla çalarlanır. Sakinlər dövlətin, ölkə başçısı cənab İlham Əliyevin siyasətini dəstəkləyir və gələcəyə ümidlə baxırlar. Axı məhz bu düzgün istiqamətli siyasətin nəticəsidir ki, regionlarda aparılan quruculuq işləri daim inkişafda olmuş. Çoxlu töhfələr vermişdir. Və bütün bu xoş məqamlar rayonun gündəlik həyatında indi də davam etməkdə, yeni-yeni uğurlara köklənməkdədir. Keçirilən görüşlər və yığıncaqlar yüksək fəallıq, təşəbbüskarlıq və dövlət başçısına inam və dəstək amacı ilə diqqət çəkir. Rayonun sosial-iqtisadi və mədəni həyatını müəyyənləşdirən bir çox amillər optimal müzakirələrə sövq edir. Potensiallar sərf-nəzər edildikcə yeni istiqamətlər formalaşır. Məsələn, tütünçülük kimi ənənəvi sahənin bərpası ideyası hamı tərəfindən bəyənilir və qəbul olunur. Elə sənaye təməli üzərində bağçılıq və heyvandarlığın daha şaxəli inkişafı...

### *Geosiyasi və iqtisadi amillərə baxmayaraq...*

Bütün bunlar barədə və digər məsələlər haqqında rayonda keçirilən ümumrayon yığıncağında ətraflı danışılmışdır.

2015-ci ilin yekunlarına dair hesabat yığıncağında geniş məruzə ilə çıxış edən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə demişdir:

- Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında neftin qiymətinin düşməsinin və manatın devalvasiyaya uğramasının Azərbaycanda iqtisadi proseslərə də təsir etdiyini deyən dövlətimizin başçısı bunun səbəbinin kənarda yarandığını, neftin qiymətinin azalmasının iqtisadi yox, siyasi amillərlə bağlı olduğunu bildirmişdir.

Prezident İlham Əliyev 2016-cı ildə qeyri-neft sektorunun inkişafının prioritet olacağını, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı tədbirlərin görüləcəyini, Dövlət Neft Fondunun vəsaitlərinin qorunması, Fonddan dövlət büdcəsinə transferlərin azaldılması, vergi bazasının genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi və ixrac-idxal əməliyyatlarının şəffaflığının təmin olunması, maliyyə nəzarətinin gücləndirilməsi ilə bağlı tapşırıqlarını verdi və bu kimi məsələlərə ictimai nəzarət mexanizmlərinin işə salınmasının əhəmiyyətindən danışmışdır. Bundan əlavə, dövlətimizin başçısı biznes mühitinin yaxşılaşdırılması, nağdsız ödəmələrin artırılması, fiskal təşviq mexanizmlərinin genişləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsinin davam etdirilməsi, bank sektorunda islahatların aparılması, özəl bankların ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsi ilə bağlı fikirlərini çatdırmışdır.

Prezident İlham Əliyev manatın məzənnəsindən danışarkən qeyd etmişdir ki, son vaxtlar müşahidə olunan qiymət artımı yerli məhsullara şamil edilməməli, istehlak qiymətlərinə çox ciddi nəzarət olunmalı, bu vəziyyətdən öz şəxsi maraqları üçün sui-istifadə etmək istəyən, süni bahalaşma yaradan natəmiz insanlara qarşı sadəcə olaraq cərimələr deyil, çox ciddi cəza tədbirləri görülməlidir.

2016-cı ildə pensiya və əmək haqlarının artırılması ilə bağlı hökumətə təkliflər hazırlamağı tapşıran dövlətimizin başçısı kənd təsərrüfatında islahatların genişləndirilməsi, meliorasiya tədbirlərinin davam etdirilməsi, əhalinin su, qaz və elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması, regionlarda sənaye zonalarının yaradılmasının sürətləndirilməsi, dotasiya ilə yaşayan rayonların iqtisadi səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlar verərək görülən işlərlə əlaqədar hər rüb məlumat verilməsi ilə bağlı rayon icra başçıları qarşısında tələblər qoymuşdur.

### *...Zaqatalada da inkişafın dinamikliyi təmin olunmuşdur*

Dünyanı bürüyən iqtisadi böhran illərindən hesab edilən 2015-ci ildə respublikamız kimi, rayonumuz da öz inkişafını davam etdirmiş, möhtərəm Prezidentimizin rayonumuza olan növbəti səfəri, Milli Məclisə keçirilən seçkilərlə yadda qalan tarix yaşamışdır. Hesabat ilində Zaqatala rayonuna təhsil, mədəniyyət, ekologiya, iqtisadi və digər sahələr üzrə müxtəlif xarici ölkələrin (Rusiya, ABŞ, Almaniya, Çexiya və Yaponiya) nümayəndə heyətləri səfər etmişlər.

Rayon İcra Hakimiyyəti gündəlik fəaliyyətində "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, tapşırıq və tövsiyyələrini əsas tutaraq Prezident Administrasiyasının dəstək və qayğısını, yerlərdə göstərdiyi əməli köməyi daim hiss etmişdir.

2015-ci ildə rayonda iki inzibati ərazi vahidinin adı dəyişdirilmiş (Əli Bayramlı kəndinin adı dəyişdirilərək Dağlı kəndi, Dombabinə kəndinin adı Üçüncü Tala kəndi adlandırılmışdır), daimi yaşayış olmadığına görə Əzgilli kəndi Azərbaycan Respublikasının ərazi vahidlərinin dövlət reyestrindən çıxarılaraq onun ərazisi Qalal kəndinin ərazisinə birləşdirilmişdir.

**Respublikada sosial-iqtisadi inkişaf proqramlarının uğurla həyata keçirilməsi, istər regionların, istərsə də ölkənin sosial-iqtisadi inkişafı istiqamətində nəzərdə tutulan proqramların reallaşması ilə bağlı işlərin davam etdirilməsinin nəticəsi olaraq 2015-ci ildə rayonda iqtisadiyyatın inkişafına nail olunmuş, 248,7 milyon manat ümumi məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2014-cü illə müqayisədə 11,2 faiz çoxdur. Məhsul istehsalı sənayedə 93,1 faiz, kənd təsərrüfatında 7,1 faiz, ticarətdə 10,9 faiz, nəqliyyatda 5,6 faiz, rabitədə 16,9 faiz, pərakəndə əmtəə dövriyyəsi 10,9 faiz, pullu xidmətlərin həcmi 2,4 faiz artmış, 1001-i daimi olmaqla 1056 iş yeri açılmışdır.**

**"... Bütövlükdə Zaqatala rayonunda işlər yaxşı gedir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Həm şəhərdə, həm kəndlərdə böyük quruculuq işləri aparılır. Bu Proqram bizə imkan verəcək ki, yaxın zamanlarda bütün əsas sosial və iqtisadi məsələlər öz həllini tapsın. Tikinti işləri davam edir, sakinlər bu işlərdə fəal iştirak edirlər".**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

**Məzahir ƏHMƏDOĞLU**